# Müasir dövrün aktual gündəliyi

# Bakı Enerji Həftəsi

***Bu gün Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir.***

BAKU ENERGY WEEK

Zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsi ölkəmiz üçün çox vacibdir. Müasir dövrdə regionda həyata keçirilən və əməkdaşlığa təkan verən layihələrdə Azərbaycanın siyasi iradəsi və qətiyyəti ön plandadır. Enerji sahəsində ölkəmizin təşəbbüsü ilə keçirilən mühüm tədbirlər, konfranslar, enerji layihələri bölgənin inkişafında mühüm rol oynayır. Azərbaycan Cənubi Qafqaz və Xəzər dənizi regionunda enerji təhlükəsizliyi sahəsində əvəzolunmaz tərəfdaşdır.



**(davamı 5-ci səhifədə)**

ŞOT ...
əhəmiy...
kanlar...
resurs...
kal ...
Qeyd ...
ci ild...
Qırğı...
bəkis...








HADİSƏLƏR KONTEKSTİNDƏ

# Müasir dövrün aktual gündəliyi

# Bakı Enerji Həftəsi




(əvvəli 1-ci səhifədə)

Artıq 2 ildir ölkəmizin ev sahibi olduğu və yaz aylarına təsadüf edən enerji forumları xüsusi diqqət mərkəzindədir. Bu il də 4-6 iyun tarixində Bakıda baş tutacaq 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi və 29-cu Bakı Enerji Forumu ilə Azərbaycan Cənubi Qafqazın əsas neft-qaz layihələrinin müzakirəsi və enerji təhlükəsizliyinin təmin olunması məqsədilə ən yüksək səviyyəli rəhbərləri bir araya gətirir. Hər il özündə üç mühüm tədbiri birləşdirən Bakı Enerji Həftəsi diqqəti Azərbaycana yönəldir. Prezident İlham Əliyevin Bakı Enerji Həftəsinin açılış mərasimində iştirak etməsi bu tədbirin yüksək statusunu təsdiqləyir.

2022-ci ilə qədər ayrı-ayrı keçirilən Beynəlxalq Xəzər Neft və Qaz, Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji sərgiləri və Bakı Enerji Forumu həmin dövrdə Bakı Enerji Həftəsi adı altında dünyanın enerji sahəsində lider ölkələrini bir araya topladı. İyunun 1-dən 4-dək davam edən Bakı Enerji Həftəsi ("Baku Energy Week") 3 böyük tədbiri - 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji sərgiləri və Bakı Enerji Forumunu birləşdirir. Məhz həmin dövrdə forum



iştirakçılarına ünvanladığı məktubda cənab İlham Əliyev qeyd edib: "Təqdirəlayiqdir ki, qlobal çağırışa çevrilmiş dekarbonlaşma, "yaşıl enerji" növlərinin artırılması, habelə əlverişli və təhlükəsiz enerji təchizatı kimi məsələlər builki Enerji Həftəsində dialoqun əsas gündəliyini təşkil edir. Eyni zamanda "Bakı Enerji Forumu" enerji sektorunun əsas tədbiri statusu qazanmış Xəzər Neft və Qaz Konfransının ənənələrini davam etdirməklə yanaşı, gündəliyini yeni enerji seqmentləri ilə də genişləndirmişdir".

Müasir dövrdə ölkəmizin qlobal enerji bazarlarında oynadığı rol ulu öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu neft strategiyasının ("Əsrin müqaviləsi"nin nəticəsidir) və Prezident İlham Əliyevin həmin ideyalar əsasında davam etdirdiyi kursun nəticəsi kimi önə çıxır. "Bakı Enerji Həftəsi" ("Baku Energy Week") enerji siyasətinin gündəliyini ən müasir çağırışlara uyğun formalaşdıran platformadır.

Ölkəmizin enerji sahəsində öz rolunu artırmaq üçün atdığı addımlar əməkdaşlıq etdiyimiz meqalayihələrin önəmini də artırır. Buna əyani sübut olan "Cənub Qaz Dəhlizi" layihəsi ölkəmizin uğurlu enerji siyasəti sayəsində öz imkanlarını əvvəlki dövrə nisbətən daha yüksək səviyyədə inkişaf etdirib. Belə ki, hər il keçirilən Forum və sərgilərə çox sayda sponsor dəstəyi olur. "ACWA POWER", "ADNOC", "AIQ", "Ansaldo Energia", "AZFEN", "Baku Steel Company", "bp", "Caspian Drilling Company", "Caspian Marine Services", "Deloitte & Touch", "GAP İnşaat", "GL", "INPEX", "John Wood Group PLC" ("Wood"), "KOLIN İnşaat", "Masdar", "MOL Group", "Nobel Energy", "Photomate", "Saudi Aramco", "SEE BREEZE", "SLB", "TEKFEN", "TotalEnergies", "Turkiye Petrolleri", "Uniper", "Ural Steel" və digər şirkətlər Bakı Enerji Həftəsində iştirak edən enerji ölkələri üçün yeni imkanlar yaradır.

Ölkəmiz 2020-ci ildə qazandığı Zəfərdən sonra işğaldan azad edilən ərazilərdə alternativ enerji mənbələrinin yaradılması üçün mühüm addımlar atıb. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan araşdırmalar nəticəsində həmin ərazilərdə bərpaolunan enerji istehsalı üçün geniş imkanların olduğu aşkar edilib. Ölkə başçımız qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji zonası" üçün konseptual layihələr hazırlanıb, müasir bərpaolunan enerji mənbələrindən ibarət unikal "yaşıl enerji zonası" konsepsiyasının yaradılması davam etdirilir. 3 il ərzində işğaldan azad edilmiş ərazilərdə enerji sahəsində görülən işlər dünya ölkələrinə nümunə olmalıdır. Artıq 3 ildir ki, forum və sərgilərin möhtəşəm yekunu kimi işğaldan azad edilmiş ərazilərdə tədbirlər keçirilir. 2022-ci il iyunun 4-də Şuşa şəhərində Bakı Enerji Forumunun iştirakçıları ilə keçirilən sessiya bu qəbildəndir.



Bu il ölkəmizdə keçiriləcək COP29 tədbiri Bakı Enerji Həftəsinin önəmini daha da artırıb. Belə genişmiqyaslı hadisə ərəfəsində enerji sektoru nümayəndələrini bir araya gətirən Bakı Enerji Həftəsi ölkəmizin bu sahədəki rolunu və dünya enerji təhlükəsizliyinə verdiyi töhfəni bir daha nümayiş etdirir. Builki Bakı Enerji Forumunun proqramına "Yaşıl dünya naminə. COP29 strateji inkişaf yolları" adlı xüsusi sessiya əlavə olunub.

Dünyanın enerji problemlərinin artdığı və alternativ enerji mənbələrinin yaradılmasına ehtiyac duyulduğu bir dövrdə Bakı Enerji Həftəsi bu sahədə unikal məkana çevrilib. Təməlini ümummilli liderin atdığı və ölkə başçısı İlham Əliyevin müasir dövrdə uğurla davam etdirdiyi enerji siyasəti nəticəsində Azərbaycan qlobal miqyasda mühüm ölkədir. Mütəmadi keçirilən Bakı Enerji Həftəsi digər tədbirlərdən geri qalmır, beynəlxalq aləmi daha dərindən düşünməyə vadar edir.

**Tacir SADIQOV,**
**"Respublika".**